# TƏCİLİ HƏRƏKƏT

## JURNALİST HƏBSDƏ TİBBİ YARDIMDAN MƏHRUM EDİLİB

**Abzas Medianın jurnalisti Nərgiz Absalamova siyasi motivli ittihamlarla səkkiz il müddətinə azadlıqdan məhrum edilib. O, haymorit, nəfəs darlığı və şiddətli baş ağrılarından əziyyət çəkməsinə baxmayaraq, dörd aydır ki, tibbi müayinədən məhrum edilir. Nərgiz Absalamovanın adekvat tibbi yardımla təmin olunmasına icazə verilməli və o, Abzas Medianın bütün jurnalistləri ilə birlikdə dərhal azadlığa buraxılmalıdır.**

**HƏRƏKƏTƏ KEÇ: ÖZ SÖZLƏRİNLƏ MƏKTUB YAZ VƏ YA BU NÜMUNƏVİ MƏKTUBDAN İSTİFADƏ ET**

***İlham Əliyev***
*Azərbaycan Prezidenti*
*Bakı AZ1066,*
*İstiqlaliyyət küçəsi 19*
*office@pa.gov.az*

Hörmətli Prezident,

Lənkəran Penitensiar Kompleksində siyasi motivli ittihamlarla səkkiz illik həbs cəzası çəkən Abzas Medianın jurnalisti Nərgiz Absalamovanın acınacaqlı və getdikcə pisləşən səhhətinə diqqətinizi cəlb etmək üçün yazıram. Jurnalistin dörd aydır tibbi müayinədən məhrum edilməsi məni ciddi şəkildə narahat edir.

Nərgiz Absalamovanın həbsdən əvvəl də mövcud olan haymorit xəstəliyi saxlanma şəraitində daha da kəskinləşib. O, nəfəs darlığı və şiddətli baş ağrılarından əziyyət çəkir və ailəsinin bildirdiyinə görə, onun MRT yoxlanışına və ümumi tibbi müayinəyə ehtiyacı var. Dörd ay əvvəl o, bu müayinələrin aparılması üçün Lənkəran Penitensiar Kompleksinə rəsmi müraciət edib. Onun vəkili Bəhruz Bayramov həm həbsxana rəhbərliyinə, həm də Ombudsman Aparatına dəfələrlə müraciət ünvanlayıb. Sonuncu qurum müraciətin daxil olduğunu təsdiqləsə də, heç bir tədbir görməyib. Həbsxana əməkdaşları isə ona bu məsələnin həlli üçün "yuxarıdan" gələcək icazəni gözlədiklərini bildiriblər.

Meydan TV və Toplum TV kimi digər müstəqil media qurumlarının qanunsuz olaraq həbs edilmiş bir neçə jurnalistinin səhhətində problemlər var və onlar da tibbi yardımdan məhrum edilirlər. Bu isə qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza olaraq qiymətləndirilə bilər. Bundan əlavə, kameraların həddindən artıq sıxlığı, cinsi qısnamalar, fiziki təhdidlər və psixoloji təzyiqlər daxil olmaqla, jurnalistlərin saxlanma şəraiti Azərbaycanın insan hüquqları üzrə öhdəliklərinin pozuntusu kimi qiymətləndirilə bilər. 2026-cı ilin may ayında Abzas Media ilə əlaqəli olan ekspert İlqar Əliyev həbsdə vəfat edib. Ədliyyə Nazirliyi onun ölümünü kəskin ürək-damar çatışmazlığı ilə əlaqələndirsə də, məhkəmə-tibbi ekspertizasının rəsmi rəyi hələ də açıqlanmayıb. Heç bir müstəqil araşdırmanın elan edilməməsi ona göstərilən tibbi yardımın adekvatlığı ilə bağlı ciddi narahatlıqlar doğurur.

**Sizi Nərgiz Absalamovanı və Abzas Medianın bütün jurnalistlərini dərhal və qeyd-şərtsiz azad etməyə, onların ehtiyac duyduqları tibbi yardımla təmin etməyə çağırıram. Mən həmçinin sizi tibbi yardımdan məhrumetmə və pis rəftar iddiaları ilə bağlı effektiv müstəqil**

**araşdırmaların aparılmasını təmin etməyə və Azərbaycanda müstəqil jurnalistləri və fərqli düşüncəli şəxsləri hədəf almaq üçün cinayət ədalət sistemindən sui-istifadəni dayandırmağa çağırıram.**

Hörmətlə,

## ƏLAVƏ MƏLUMAT

Nərgiz Absalamova Abzas Mediada dövlət rəsmiləri ilə əlaqəli şirkətlərin korrupsiya sövdələşmələri iddialarını işıqlandıran jurnalistdir. Bu media qurumu həmçinin Azərbaycanın Gədəbəy rayonunun Söyüdlü kəndi yaxınlığındakı qızıl mədəni ilə bağlı təhlükəli çirklənmə və sağlamlıq riskləri kimi ekoloji problemlərə dair araşdırma materialları dərc edib. Nərgiz Absalamova 2023-cü il noyabrın 30-da Abzas Medianı hədəf alan həbs dalğası çərçivəsində saxlanılıb. O və həmkarları Bakıdakı ailə üzvlərindən uzaqda yerləşən Lənkəran Penitensiar Kompleksində saxlanılırlar.

Abzas Medianın direktoru Ülvi Həsənli, onun müavini Məhəmməd Kekalov, baş redaktor Sevinc Vaqifqızı və jurnalistlər Nərgiz Absalamova, Elnarə Qasımova, Hafiz Babalı, habelə iqtisadçı və Azadlıq Radiosunun müxbiri Fərid Mehrəlizadə 2023-cü ilin noyabrı ilə 2024-cü ilin yanvarı arasında qanunsuz olaraq həbs ediliblər. Onlar qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qaçaqmalçılıqda ittiham olunublar. 2024-cü ilin avqustunda prokurorluq onlara qarşı qanunsuz sahibkarlıq, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini leqallaşdırma və vergidən yayınma kimi yeni saxta ittihamlar irəli sürüb. 20 iyun 2025-ci ildə Bakı Ağır Cinayətlər Məhkəməsi Abzas Media ilə əlaqəli yeddi media işçisini yeddi yarım ildən doqquz ilə qədər müddətə azadlıqdan məhrum edib. 3 aprel 2026-cı ildə Ali Məhkəmə Abzas Media jurnalistlərinin kassasiya şikayətlərini rədd edərək, 2025-cü ilin iyun ayındakı hökmləri və həbs cəzalarını qüvvədə saxlayıb.

2023-cü ilin dekabrında informasiya təhlükəsizliyi və İT idarəçiliyi üzrə ekspert İlqar Əliyev Abzas Mediaya qarşı aparılan araşdırma çərçivəsində həbs edilib. Həmin vaxt Əliyev və ailəsi onun həbsinin və Abzas Media ilə əlaqələrinin ictimaiyyətə açıqlanmasını istəmirdilər. 2026-cı ilin mayında İlqar Əliyev Azərbaycanın 13 saylı Cəzaçəkmə Müəssisəsində vəfat edib. Son səs yazısında İlqar Əliyev polis əməkdaşlarının onun cibinə narkotik və psixotrop maddələr atdığını, təhdid altında onu etiraf etməyə məcbur etdiklərini və imtina edəcəyi təqdirdə ailəsini hədəfə alacaqları ilə hədələdiklərini bildirib. Məhkəmə sənədlərində fiziki zorakılıq, təzyiqlər, onun seçdiyi vəkillərlə təmin edilməməsi və prosessual sənədlərin saxtalaşdırılması ilə bağlı iddialar mövcuddur.

23 fevral 2026-cı ildə BMT-nin bir neçə xüsusi məruzəçisi və BMT-nin Qanunsuz Həbslər üzrə İşçi Qrupu Nərgiz Absalamovanın və digər qadın jurnalistlərin Lənkəranın Qurumba kəndindəki ucqar həbsxanaya köçürülmələri və saxlanma şəraiti ilə bağlı narahatlıqlarını ifadə ediblər. Jurnalistlərə köçürülmə barədə yola düşməzdən cəmi bir saat əvvəl məlumat verilib. Qurumba müəssisəsi Bakıdan 250 kilometr cənubda yerləşdiyinə görə onların ailələri və vəkilləri üçün gediş-gəliş və maliyyə baxımından ciddi çətinliklər yaradır.

2023-cü ilin noyabr ayından etibarən Azərbaycan hakimiyyəti 30-a yaxın jurnalist və media işçisini qanunsuz olaraq həbs edib. 2024-cü il dekabrın 6-dan bəri saxlanılanlardan ən azı 12 nəfəri Meydan TV ilə əlaqəli jurnalistlərdir. Toplum TV-nin həmtəsisçisi Ələsgər Məmmədli, jurnalistləri Fərid İsmayılov, Müşfiq Cabbarov və Əli Zeynalova daxil olmaqla, qurumun bir neçə jurnalistinə qarşı cinayət işləri davam etməkdədir.

Saxlanılan jurnalistlər müntəzəm olaraq zəruri tibbi yardımdan məhrum edilmələri daxil olmaqla, pis rəftara məruz qaldıqlarını və yatdıqları yerlərdə tualetlərin yerləşdiyinə görə antisanitar şəraitdə və həddindən artıq sıx kameralarda (8-10 nəfərlik kameralarda 15-18 məhbusun saxlanılması) saxlanıldıqlarını və nəticədə səhhətlərinin daha da pisləşdiyini bildirirlər.

Azərbaycandakı saxlanma yerlərində işgəncə və digər pis rəftar halları geniş yayılıb və cəzasızlıqla həyata keçirilir. Amnesty International həbsdə olan hökumət tənqidçilərinin zəruri tibbi yardımdan məhrum edilməsi barədə mütəmadi olaraq məlumatlar verir. Avropa Şurasının İşgəncələrin və Qeyri-insani yaxud Ləyaqəti Alçaldan Rəftar və ya Cəzaların Qarşısının Alınması üzrə Avropa Komitəsi (İQK) həbsxana şəraitinin yaxşılaşdırılması, işgəncə və digər pis rəftar hallarının aradan qaldırılması ilə bağlı çağırışlarına cavab olaraq Azərbaycan hakimiyyəti tərəfindən nümayiş etdirilən ”davamlı əməkdaşlıq qüsurlarını” ictimai şəkildə pisləyib.

**ÜNVANÇININ ÜSTÜNLÜK VERDİYİ DİLLƏR:** azərbaycanca, türkcə, rusca, ingiliscə
Siz həmçinin öz dilinizdə yaza bilərsiniz.

**XAHİŞ EDİRİK MÜMKÜN OLDUĞU QƏDƏR TEZ FƏAL OLUN: 30 avqust 2026-ya qədər**
Əgər müraciətinizi göstərilən tarixdən sonra göndərmək istəyirsinizsə, lütfən ölkənizdəki Amnesty İnternational şöbəsilə əlaqə saxlayın.

**ADI: Nərgiz Absalamova**

**ƏVVƏLKİ TƏCİLİ HƏRƏKƏTƏ LİNK:** Azərbaycan: yeni ittihamlar və uzadılmış həbslə üzləşirlər: Abzas Media